

■ Louisa May Alcott

# QIZ

*hekayə*

- Mən çimmək istəmirəm! Çimmək istəmirəm! - bir axşam balaca Betti onun əynindən gecəköynəyini çıxardan qulluçunun üzünə şillə vurdu, onu təpikləyə-təpikləyə qışqırdı.

- Pinti qız, sənin yerin donuz damıdır, çimmək istəmirsənsə get donuzlarla bir yerdə yaşa! - Mariya dedi.

- Kaş belə olaydı! Mən çirkli olmağı sevirəm! Çirkli qalmaq istəyirəm! - Betti Mariyanın əlindəki kisəni dartıb aldı. Kisəni pəncərədən tulladı, sabunu isə stolun altına vıyıldatdı.

Mariya nə edəcəyini bilmədi, onu vannadan çıxarıb quruladı, paltarını geyindirdi, dedi ki, gedib yatsın.

- Mən yatmayacam! Gedib xanım Qlisonun donuzları ilə bir yerdə yaşayacam! Bütün günü yeyib yatacam, zibillikdə eşələnəcəm. Bir də, bir də heç vaxt çimməyəcəm, - Betti öz-özünə pıçıldadı.

O çarpayısında uzanıb belə fikirləşir, nəzərlərini pəncərədən görünən aya dikib gözlərini bir neçə dəfə yumub-açdı. Sonra o yavaşca yerindən durdu, pilləkənlə aşağı düşüb donuz damına getdi. Donuz damında iki qəşəng, balaca donuz balaları samanın üstündə dərin yuxuya getmişdi, Betti damın bir küncünə tərəf sürünə-sürünə gedəndə donuzlar xortuldadı. Betti bundan sonra donuzlarla bir yerdə yaşayacağına sevinirdi. Mariya bir daha onu çimizdirməyəcək, anası da hər gün dəfələrlə "əzizim, təmiz önlük tax" deməyəcəkdi.

Beləcə Betti gecəni donuzların damında keçirdi. Səhər açılanda xanım Qlisonun səsinə yuxudan oyandı, o donuzların təknələrinə süd tökürdü. Betti səsini çıxarmadı, qadın gedəndən sonra sürünə-sürünə təknəyə sarı getdi, süddən doyunca içdi. Soyutma kartof qırıqlarının ən yaxşılarını seçdi, bir az da çörək götürdü səhər yeməyi üçün. Betti yemək yeyib qurtaranda tənbəl donuzlar yuxudan durdular. Onlar yeyəndən sonra peyinin içində eşələnəndə Betti də istədiyi qədər yatdı. Nə məktəbə getdi, nə ev tapşırıqları etdi, nə də tikmə tikdi. Çox xoşuna gəldi belə yaşamaq. Axşama qədər donuz damında gizləndi, qaranlıq olanda xəlvətcə evlərinə getdi, ərzaq yığdıqları anbarın balaca pəncərəsindən içəri girdi, istədiyi yeməli şeyləri yığıb sakitcə, səs salmadan geri qayıtdı. Bağdakı güllər yuxuya getmiş, quşlar öz yuvalarında civildəşirdilər. Havada uçuşan işıldaqaquşların, pərvanələrin rəqsinə də tamaşa etdi. Qaranlıqda onu yalnız pişiklər gördü, ay işığında pişiklər bir az onunla oynadı, ayaqlarına tullandı. Pişiklərlə oynayıb yorulandan sonra o dama gedib yatdı. Səhər açılanda yenə də təknədəki südü içdi, Qlisonun gətirdiyi yemək qırıntılarını yedi. Xanım Qlison donuzlarına yaxşı qulluq edirdi, onların altına tez-tez təmiz saman tökürdü.

Betti uzun müddət belə qəribə həyat keçirdi. İndi o balaca qıza yox, donuza oxşayırdı. Çünki onun əynindəki gecəköynəyi kir içindəydi, saçını heç vaxt daramır, üzünü heç vaxt yumur, əksinə, əlləri pəncəyə oxşayana qədər palçıqla oynayırdı. O heç vaxt danışmırdı, donuzlar kimi xortuldayır, samanlıqda yatır, donuzlar başına toplaşanda isə ciyildəyir, yeməyə görə onlarla dalaşır, əsl donuz kimi yeyirdi. Gecələr evlərə gedib ərzaq oğurlayırdı, adamlar evlərinə girən oğrunu tutmaq üçün tələ qururdular. Öz evlərindəki aşpaz isə elə bilirdi ki, ərzaq anbarından piroqları, peçenyeləri siçovullar daşıyıb yeyir, onların arxasınca deyinirdi. Getdikcə o daha da tənbəlləşir, bütün günü donuz damında yeyib-yatırdı. İndi o əlləri və ayaqları üstündə yeriyirdi, gözləyirdi ki, burnu nə vaxt xortum olacaq, quyruğu nə vaxt çıxacaq.





Bütün yayı o donuz damında keçirdi, belə yaşamaq çox xoşuna gəlirdi. Amma payızda soyuqlar düşəndə o qəşəng, isti gecəköynəyinin həsrətini çəkdi, soyuq yemək və soyuq su içməkdən bezdi, isti soba yanında oturub piroq, qarabaşaq sıyığı yeməyi arzuladı. Evlərinə qayıtmağa çox utanır, bu axmaq hərəkətindən sonra nə edəcəyini düşünürdü. Donuzlardan soruşdu ki, qış aylarıda nə edirlər, donuzlar ona cavab vermək əvəzinə xortuldadılar. Gündən-günə damdakı donuzlar azalırdı. Betti niyə belə olduğunu başa düşmürdü.

Nəhayət, bir gecə hər şeyi başa düşdü.

O gecə iki yekə, kök donuzların arasında yatıb, ayaqlarını samanla örtmək istəyəndə xanım Qlisonun oğluna dediyi sözləri eşitdi:

- Bu donuzları da sabah kəsərik. Onlar əməlli-başlı kökəliblər. Gəl, mənə kömək elə, yekə bıçağı çarxda itilə.

- İlahi, bəs mən nə edəcəm? - oğlan yekə bıçağı çarxda itiləyəndə Betti öz-özünə dedi. Bilirdi ki, çarx fırlandıqca bıçaq daha da itiləşir.

- Mən də donuza oxşayıram, əgər burdan qaça bilməsəm, onlar məni də kəsəcək, məndən kolbasa hazırlayacaqlar. Daha donuz kimi yaşamaqdan bezmişəm, kolbasa olmaqdansa yüz dəfə çimmək daha yaxşıdır.

Beləcə, o səhərə kimi qorxusundan tir-tir əsdi. Səhər açılanda o donuz damından çıxıb bağın içiylə qaça-qaça evlərinə gəldi. Qapı açıq idi, o evə girəndə heç kim görmədi. Aşpaz həyətdəki anbardan quru odun gətirməyə getmişdi ki, sobanı yandırsın. Betti fürsətdən istifadə edib pilləkənlə yuxarı mərtəbəyə, öz otağına çıxdı, çarpayısına tərəf gedəndə divardakı güzgüdə öz əksini gördü. Güzgüdən ona üst-başı cır-cındır, üzü kirli, burnu palçığa bulaşmış saçı pırtlaşıq bir qız baxırdı.

- Görəsən, bu mənəm? - Betti öz-özünə dedi. - Mən nə yaman gündəyəm?

Başa düşdü ki, bu vəziyyətdə gedib çarpayısındakı tərtəmiz yorğan-döşəyi çirkləndirə bilməz. Cəld gedib vannaya girdi, kir-pasını kisyələ sürtüb, sabunlandı. Sonra o təmiz gecəköynəyini geyindi, saçlarını daradı, uzun dırnaqlarını kəsdi, yenidən qəşəng, səliqəli qız oldu, çarpayısına çıxıb başını balışına qoydu, çəhrayı adyalı üstünə çəkib dərin yuxuya getdi.

- Əzizim, dur, bax gör sənə nə qəşəng don, naxışlı önlük almışam. Bu gün Şükranlıq günüdür, bütün qohum-əqrəba naharda bizə gələcək, - anası onun al yanağından öpüb dedi.

Betti səs eşidən kimi yerindən dik atılıb qışqırdı:

- Məni öldürmə! Nə olar, məni kəsməyin! Mən əsl donuz deyiləm, balaca bir qızam. Evimizə getməyə icazə versəniz bundan sonra heç vaxt çiməndə nadinclik etməyəcəm.

- Ah, mənim balaca qızım nədən qorxub? - Betti gözlərini ovuşdura-ovşdura ətrafa boylananda anası onu qucaqlayıb dedi.

Betti anasına başına gələnləri danışdı, anasının sözlərini eşidəndə çox təəccübləndi:

- Şirin balam, bunlar hamısı yuxuda olub. Sən gecə yazıq Mariyanın üzünə şillə vurandan sonra öz çarpayında mışıl-mışıl yatmısan.

- Ah, nə yaxşı ki, bunlar hamısı yuxuymuş. Bu yuxudan sonra həmişə təmiz olmaq istəyirəm. Mariya, bura gəl, gəl məni istədiyin qədər sabunla, kisələ, mən bir də səni təpikləməyəcəm, bir daha çiməndə qışqırmayacam, - Betti tənbəl, donuz qız olmadığına görüb sevincək dedi.

**İngilis dilindən tərcümə edən: Sevil Gültən**